# AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ

## Mikrobiologiya İnstitutu

https://www.azmbi.az/

Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin Mikrobiologiya İnstitutunun əsası 16.02.1972-ci ildə qoyulub və 1994-cü ilə kimi AMEA-nın Mikrobiologiya bölməsi kimi fəaliyyət göstəribdir. 02 noyabr 1994-cü ildə Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 375 №-li Qərarı ilə Mikrobiologiya bölməsinə İnstitut statusu verilib və 12 dekabr 1995-ci ildə Azərbaycan Respublikası Ədliyyə Nazirliyi tərəfindən Nizamnaməsi elmin mikrobiologiya və biotexnologiya sahələrinə aid fundamental elmi-tədqiqat işləri aparan dövlət müəssisəsi kimi dövlət qeydiyyatına (Şəhadərtnamə № D-889) alınıbdır.

Azərbaycan Respublikası Prezidentinin 28 iyul 2022-ci il tarixli Fərmanına əsasən Mikrobiologiya İnstitutu Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin tabeliyinə verilmişdir.

Hazırda İnstitutun baş direktoru AMEA-nın müxbir üzvü Pənah Muradovdur.

**İnstitutun əsas elmi istiqaməti:**

AR ETN-nin Mikrobiologiya İnstitutunda aparılan elmi-tədqiqat işlərinin əsas istiqaməti ölkənin su, torpaq və bitkilərlə bağlı ekosistemlərində məskunlaşan mikroorqanizmlərin (bakteriya və göbələklərin) yayılması qanunauyğunluqlarının fizoloji-biokimyəvi, ekoloji və biotexnoloji əsaslarının öyrənilməsi, mikroorqanizmlərdəm praktiki məqsədlər üçün istifadənin elmi əsaslarının hazırlanması, eləcə də su, torpaq və meşələrin müasir ekoloji vəziyyətinin mikrobioloji və mikoloji cəhətdən qiymətləndirilməsidir.

**İnstitutun tərkibində fəaliyyət göstərən müdafiə şurası:**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasında qeydiyyat nömrəsi **ED 1.07** olan Dissertasiya şurası fəaliyyət göstərir.

**Elm Sahəsinin adı: Biologiya elmləri**

2414.01 – Mikrobiologiya

2434.01 – Mikologiya

**Şöbə və laboratoriyalar:**

1. Mikrobioloji biotexnologiya laboratoriyası.
2. Torpaq mikrobiologiyası laboratoriyası.
3. Su mikrobiologiyası laboratoriyası.
4. Bioloji aktiv maddələr laboratoriyası.
5. Fitopatogen mikroorqanizmlər və bioloji nəzarət laboratoriyası.
6. Eksperimental mikologiya laboratoriyası.

## STATİSTİK MƏLUMATLAR

### Mikrobiologiya İnstitutu

